# Türk tarixi və mifoloji dünyagörüşündə atlar



**Hikmət Babaoğlu**
**siyasi elmlər doktoru, professor**

## Atların tariximizdə rolu

*Atlar bəşəriyyətin inkişaf tarixində, müasir sivilizasiyanın formalaşmasında və indiki kimi şəkillənməsində xidmətləri olan ən nadir canlılardır. Atın əhliləşdirilməsi dünyanı, bir növ, kiçiltməyə başladı. İnsanlar dünyanın bir ucundan başqa ucuna daha qısa zamanda çatmağa nail oldular. Qəbilələr, tayfalar, nəhayət, xalqlar və millətlər arasında əlaqələrin intensiv xarakter alması, mədəniyyət mübadiləsinin sürətlənməsi, dövlətin yaranması və inkişaf etdirilməsi məhz atlardan nəqliyyat vasitəsi kimi istifadə etməklə mümkün olmuşdur. Qədim dövrlərdə atlar həm sivil, həm də hərbi nəqliyyat vasitəsi idi. Müharibələr zamanı atlar və onların keyfiyyəti həlledici hərbi faktorlardan biri idi. Yaxşı at həm sahibinin döyüşdə iştirakını təmin edir, həm də dar məqamlarda iti qaçışı ilə onu düşmən əlindən, yəni ölümdən xilas edirdi. Lakin atların funksiyası bununla da bitmirdi. Atlar son 100-150 ilədək həm nəqliyyat vasitəsi, həm var-dövlət nişanəsi, həm mədəniyyət mübadiləsi vasitəsi, həm dövlətçilik vasitəsi, həm qida vasitəsi idi. Atların ətini yeyir, südünü içir, dərisindən ən müxtəlif geyim və məişət vasitələri hazırlayırdılar. Qədim dövrlərdə loğmanlar atlarla və onlardan əldə edilən süd, yaxud qımız vasitəsilə insanları həm də müalicə edirdilər. Şərqin böyük mütəfəkkiri Əli Əbu İbn Sina epilepsiya, bel ağrıları, nevroz vəs. kimi xeyli sayda digər xəstəlikləri atlar vasitəsilə müalicə edirdi. Elə indi də bənzər xəstəlikləri hippoterapiya adlandırılan xüsusi vasitəylə müalicə edirlər.*

Atın yalının və quyruğunun tükündən gözlükdən başlamış tələyə qədər, topdan başlamış tora qədər ən müxtəlif əmək və əyləncə vasitələri düzəldirdilər.

Mahmud Kaşğariyə görə, at quyruğunun qılını bir-birinə dolamaqla kos dediyimiz xüsusi top hazırlanırdı və bu kosla bu gün də oynadığımız çovqan oyunu oynanırdı. Çovqan – yaxud savu – kan, savunma, müdafiə olunma sözündəndir və türkcədir. Qan – qən Azərbaycan dilində sözdüzəldici şəkilçidir. Məsələn dalaş, dalaş-qan, savun, savu-qan, yəni indiki qramatik deformasiya ilə çovqan. Kos sözü sonralar ruslara da keçib və hazırda rus qadınları saçlarını top kimi yığanda ona kos deyirlər. Lakin atların insan oğluna hədiyyələri bununla da bitmirdi. Bütün dördayaqlıların şahı olan atların quyruğunun tükündən sap kimi istifadə olunurdu. Döyüşdə qılınc yarası almış döyüşçülərin yaraları belə saplarla tikilirdi.

## Atların musiqi tariximizdə rolu

Hətta milli musiqi alətimiz hesab olunan qopuz da ibtidai variantında atların quyruğunun tükündən sim kimi istifadə edilməklə hazırlanırdı. Elə bu gün də kaman və skripka kimi musiqi alətlərinin səsləndirilməsində at (ayğır) quyruğunun tükündən istifadə olunur. Qopuz hazırlanan zaman ilk əvvəl taxta parçası yonularaq münasib formaya salınır, sonra ona at (ayğır, yaxud daha qədim variantda adğır, erkək at) quyruğundan simlər bağlanırdı. Qopuzu kökləmək üçünsə qopuzun qolu boyu bağlanmış belə simlərin altına xırdabuynuzlu heyvanların aşıqlı sümüyündən çıxmış aşıq adlandırılan birləşdirici oynaq sümüyü qoyulurdu. *Bu sümüklə həm aşıq-aşıq oynanılır, həm də ondan qopuzun aşığı kimi istifadə edilirdi. Simlə qolun arasına yerləşdirilmiş yəhərvari aşıq sümüyünü yuxarı sıxmaqla zil, aşağı endirməklə bəm səs alınırdı. Beləliklə dəqopuzda lazımi səslər əldə etməklə çöl mahnıları oxunurdu. Saxa-Yakutiya Respublikasında tapılmış bir şaman məzarında çoxlu sayda aşıq bulunmuşdu. Bunun səbəbi o idi ki, qam-şamanlar həm dini rituallar yerinə yetirir, həm də bunu musiqinin müşayiəti ilə edirdilər.* Onlar qədim dövrün həm dini-ideoloji liderləri, həm də, bir növ, musiqiçiləri idilər. Qam-şamanlar, əslində isə elə qamlar sonralar monqolların hegemonluğu dövründə qıpçaq ləhcəsinə uyğun olaraq şam kimi tələffüz edilməklə sonluğuna cəm şəkilçisi an (lar-lər) qəbul etdi. Beləliklə, "qam""şaman"a çevrildi. Ancaq "şam+an" da deyəndə yenə qam+lar nəzərdə tutulurdu. Yakutiyada tapılan qam məzarında olan aşıqlar da onu deməyə əsas verir ki, dini rituallar zamanı, yaxud musiqi ifa edərkən bəzən qopuzun qolundakı simlərin altına yerləşdirilmiş aşıq yerə düşür. Qam isə qaranlıqda, yaxud tonqal işığında onu axtarıb tapmaqdansa, dərhal elə yanında gəzdirdiyi torbadan yeni bir aşıq sümüyü çıxararaq qopuzu kökləyirdi. Ona görə də döyüşçünü atı, silahı ilə dəfn etdikləri kimi, şamanı da aşığı ilə bərabər dəfn edirdilər. Bu gün də qopuzun, necə deyərlər, nəticəsi sayılan sazı kökləyərkən istifadə etdiyimiz, sazın qollarına bağlanmış ağac parçasına elə aşıq deyirik. Diqqət edin, "aşıq" sözü də buradan yaranıb. Təəssüf ki, bəzi musiqişünaslarımız və tarixçilərimiz "aşıq" sözünün ərəbcə aşiq, yəni sevən, valeh olan sözündən yarandığını bildirirlər. Bu, əsla doğru deyil. Necə ola bilər ki, bizim milli sənət növümüzün və ifaçımızın adı yad dildə olsun?!"Aşıq" sözünün sinonimi kimi bəzi bölgələrimizdə "yanşaq" sözü də işlədilir. Bu da yuxarıda qeyd etdiyimiz kimi, şamanların torba dolu aşığı yanlarında gəzdirərkən onun çıxardığı səslə bağlıdır.

"Qam" sözünün milli musiqimizlə əlaqəsi bununla da bitmir. Türklər dünyanı fəth edib gücləndikcə ictimai-mədəni həyatın bütün sahələri üzrə yüksəliş baş verirdi. Qədim dövrlərdə müvafiq rituallar zamanı uzun zil və bəm səslər çıxarmaqla ruhlarla, yaxud elə Tanrı ilə əlaqə yaratmaq istəyən qamlar sonralar bu səslərdən daha sistemli və ardıcıl şəkildə istifadə etməyi öyrəndilər. Daha sonra bu səslərə sözlər də əlavə edildi. Beləliklə, ilkin vokal sənətiməhz qamların, sonra isə aşıqların ifasında təkmilləşməyə başladı. *Qopuzun kəşfi isə qamların bir qismini musiqiçi kimi formalaşdırdı. Ancaq buna baxmayaraq, yenə də onlara qam, ifa etdikləri musiqiyə də elə qam deyirdilər. Sonrakı tarixi mərhələdə türklər böyük dövlətlər, imperiyalar qurduqca qam sənəti də saraylara daşındı, əyləncə və zövq vasitəsinə çevrildi, ritm qazandı və nəhayət, bir neçə yardımçı alətlə ifa olunmağa başladı. Yeni buraya dəf də əlavə edildi və qopuz ifaçısı ayrıca, söz ifaçısı da ayrıca oldu. Beləliklə, bizim muğam üçlüyü dediyimiz üçlük formalaşdı. Qam isə indiki "muğam" sözünün kökünü təşkil edən həmin "qam" sözüdür. Sadəcə "ğam" kimi tələffüz edirik.* Şərqdə tərəqqi edən qam sənətinə elə şərqli samilər tərəfindən ərəbcə "mu" ön şəkilçisi artırıldı. Çünki onlar bu ecazkar musiqinin bir tək adam tərəfindən deyil, qopuz və dəfin müşayiəti ilə oxunduğunu görürdülər. Ona görə dəözlərinin dil qanunauyğunluqlarına görə birlikdə, bərabər mənasını verən "mu" şəkilçisini "qam" sözünə əlavə etdilər və qamların ifadə etdiyi sənət növünə muqam, yəni muğam dedilər. Məsələn, necə "təfəkkür" sözünə, yəni idrak, ağıl mənasını bildirən bu sözə "mü" önşəkilçisi artırmaqla filosof, alim mənasını verən "mütəfəkkir" sözü yarandısa, eləcə də "qam" sözü "muqam"a çevrildi. Elə muğam sənətində indi də türk etnik adları ilə adlandırılan çoxlu muğamlarımız var. Başqa heç bir xalqın etnik tərkibini təşkil edən boy adları ilə bağlı muğam yoxdur. Məsələn, "Ovşarı" muğamı. Bu, ovşar oğuzların bir boyu olan ovşar tayfalarının adıdır. Ovcul, ov edən, ovçu deməkdir. Muğamda işlədilən xüsusi zil səsə isə zəngulə deyirlər. Bu da qədim zəngi tayfaları ilə bağlıdır. Zəngibasar, Zəngəzur, Zəngilan, Zəngan(-farslar Zəncan deyir) yer adları da etno-toponimlərdir və zəngilərlə bağlıdır. "Arazbarı" muğamı da "ər-az" yəni "az döyüşçüsü"-mənasını verən az+ər-baycanlıların etnogenezində dominantlıq edən az tayfaları ilə bağlıdır. "Ər-az", "az+ər"in metateza olunmuş formasıdır. "Barı" – isə "barmaq", "varmaq", "getmək" feilindəndir. "Var-gəl etmək" dəelə gedib-gəlmək mənasını verir. Deməli, "Arazbarı – Az boyunun səsləndirdiyi, yaxud yaratdığı muğamdır", bardır, yəni həm də mənəvi məhsuldur.

*"Bayatı-Şiraz", muğamı isə yenə də türk etnik adıdır. Şirazda yaşayan boyat tayfalarının musiqi məhsulu kimi başa düşülməlidir. "Bayatı-Türk", "Bayatı-Qacar", "Bayatı-Əcəm", "Zəngi-Şüştər" və s. bunlar hamısı türk boylarının adı ilə bağlıdır. Bir şeyə diqqət etmək lazımdır ki, ərəb və fars sözləri ilə adlandırılan digər muğamlarımızın heç biri etnik ad bildirmir. Məsələn, "Segah", "Şüştər", "Rast", "Çahargah", "Hümayün", "Dügah" və s. Bunların heç biri tayfa, boy bildirən adlar deyil. Sadəcə muğamın daxili strukturuna və səs harmoniyasının keyfiyyətinə görə müəyyənləşdirilən adlardır.*

Qamların qədim tariximizdə nə qədər əhəmiyyətli yer tutduğunu son bir misalla xatırlatmaqla fikrimizi yekunlaşdıraq. Bəzi tarixçilərin türk dövləti olmasına şübhə etdikləri Midiya dövlətinin başçısı Astiaqın, əslində isə Az-Teqin,yəni Az Təkininsərkərdəsi və vəzirinin adı Qamatan idi. Bu, Qam-Ata deməkdir. Qam dini-ideoloji lider olduğu üçün ona ata deyərək hörmət edirdilər. Perslərə qarşı məşhur Qamata üsyanının başında da elə o dururdu. Təəssüf ki, heç bir tarixçi bu vaxtaqədər Qam-Ata birləşməsini bu şəkildə izah etməyib.

*Perslərlə əlbir olub Astiaqı hakimiyyətdən salan da eləQarpaq adlı türk olub. Qarpaq isə elə qıpçaqların bir boyu olan qarapapaqların təmsilçisi idi. Astiaq devrildikdən sonra Qarpağa bildirdi ki, "sən çox axmaq və çox alçaq adamsan. Axmaqsan ona görə ki, əgər məni devirmək istəyirdinsə, bunu özün edib, hakimiyyətə özün gələrdin. Pers Kiri gətirməzdin! Alçaqsan ona görə ki, sən bu çevrilişinlə qul ikən bir xalqı (yəni persləri) ağa, ağa ikən bir xalqı (yəni midiyalıları, medləri,türkləri) qul etdin".*



*Qopuz hazırlanan zaman ilk əvvəl taxta parçası yonularaq münasib formaya salınır, sonra ona at (ayğır, yaxud daha qədim variantda adğır, erkək at) quyruğundan simlər bağlanırdı. Qopuzu kökləmək üçünsə qopuzun qolu boyu bağlanmış belə simlərin altına xırdabuynuzlu heyvanların aşıqlı sümüyündən çıxmış aşıq adlandırılan birləşdirici oynaq sümüyü qoyulurdu. Bu sümüklə həm aşıq-aşıq oynanılır, həm də ondan qopuzun aşığı kimi istifadə edilirdi. Simlə qolun arasına yerləşdirilmiş yəhərvari aşıq sümüyünü yuxarı sıxmaqla zil, aşağı endirməklə bəm səs alınırdı. Beləliklə dəqopuzda lazımi səslər əldə etməklə çöl mahnıları oxunurdu. Saxa-Yakutiya Respublikasında tapılmış bir şaman məzarında çoxlu sayda aşıq bulunmuşdu*

**(davamı gələn sayımızda)**